

Kənan Hacı

# Hacı İsgəndər

Roman

(əvvəli ötən sayımızda)

### Müəllifdən

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

***

*- Şimal küləyi doğulduğu yerlərin soyuğundan qızınmaq üçün hər nə oldı içir, sərxoş olub, yolnı azır, kefli-kefli hadisələrin yerlərini çaşbaş salır, onları özü seçdiyi ərazilərə aparır.*

*Ağsaqqallar da müdrikcəsinə gülümsəyib deyirdilər:*

*-Yaxşı, qış olanda deyirsiz soyuqdu, yayda da istiyə görə deyinirsiz. Qışda soyuq olar, yayda da isti də. Bu, Allahın işidir, heç vaxt narazılıq eləmiyün.*

*Günəşin Bakı sakinlərinə olan yüksək sevgisi iyul ayının ortalarından sentyabrın axırınadək davam edirdi. Sanki o göz qamaşdıran varlıq öz hərarətilə bakılıların bədənindən tərlə birlikdə keçən qışın soyuğunu, dərd-bəlanı da xaric etməyə çalışırdı. Günəş hardan bilsin ki, onun insanlara göstərdiyi bu münasibəti, onları işdən-gücdən ayırıb, tənbəlliyə sürükləyir, adamlar vaxtlarını keçirmək üçün sərin yer axtarırlar, kölgəlikdən çıxmaq istəmirlər. Amma şaxta, külək tənbəlləri də hərəkətə gətirir, çünki onlar bir yerdə dayansalar, donarlar, ona görə mütləq hərəkətdə olmalı idilər.*

Ağsaqqallar, ağbirçəklər şimal küləyinə qarğış edərdilər, Allaha yalvarardılar ki, belə bir zalım küləyin belini qırsın, onu əsməyə qoymasın. Bu isə heç bir nəticə vermirdi. Sanki bu ərazidə baş verən hadisələr azlıq edirdi. Şimal küləyi gözlənilmədən şəhərə və onun ətrafına birdən elə iyli-qoxulu, natəmiz, qan-qan deyən hadisə gətirdi ki, şəhər camaatı ondan təmizlənmək üçün nə hamam tapa bilirdi, nə də kisəçi. Bu zəhrimar hadisədən əmələ gələn əhvalatların sayını təyin etmək mümkün deyildi. Onların çoxunu insanlar yaddaşında saxlaya bilməmişdilər və az bir vaxt keçəndən sonra unutmuşdular. Bəzi əhvalatlar isə ağızlardan qulaqlara, qulaqlardan da ağızlara keçib, adamların xatirində qalmışdı. Beləliklə, gəlib bizə də çatmışdı.

*Hacı İsgəndəri həbs ediblər! Xəbər ildırım sürətilə kəndə, sonra da şəhərə yayıldı. Hamı mat-məəttəl qalmışdı, sadə, xeyirxah bir kənd müəllimini niyə həbs etsinlər? Düzdür, ölkədə tuthatut başlanmışdı, bütün elm, zəka sahiblərinə, şairlərə divan tuturdular, hamısına ucdantutma pantürkist, musavatçı damğasını vurub gedər-gəlməzə yollayırdılar. Həbs edilənlər içərisində yüksək vəzifəli məmurlar da vardı. Murtuza müəllim danışırdı ki, xalqın sevimli aktyoru Abbas Mirzə Şərifzadəni gözümün qabağında qara maşına basıb apardılar.Şeyx Kamiyabı aparanda qonşu qadınlar örpəklərinin ucunu ağızlarına sıxıb xısın-xısın ağlaşırdılar.*

Külək qar kəpənəklərini havada fırladırdı. Bakıya hələ belə qar yağmamışdı. Şaxta qılınc kimi adamları kəsib doğrayırdı. Şimal küləyi elə bil adamların içində əsirdi. Külək dostdan düşmənə çevrilmişdi. Bulud göy üzünü ağır qurğuşun kimi örtmüşdü. Onu kameraya salanda qaranlıq bir anlığa gözünə pərdə çəkdi, handan-hana içəridə soyuqdan köpəklər kimi bir-birinə sığınmış adamları gördü. Zavallılar köpək balaları kimi sitildəyirdilər. Vahimədən gözləri böyümüşdü, qapının açılmağından yenə onlara işgəncə verməyə gəldiklərini zənn etmişdilər. Hacı İsgəndəri isə sındıra bilməmişdilər. Bütün günü onun səbrini sınağa çəkmişdilər. Bitib-tükənməyən suallarla onun iradəsini qırmaq istəyirdilər. Evində yoxlama aparılarkən Nuru Paşanın təqdim etdiyi "Xalq qəhrəmanı" döş nişanını, Atatürkün ona göndərdiyi qızıl kəməri, qiymətli əşyaları, qızılları, xalçaları, digər vacib sənədlərin hamısını götürmüşdülər.

İstintaq zamanı ondan özünümüdafiə dəstələrində onunla birlikdə döyüşən adamların siyahısını istəyirdilər. İşgəncələr versələr də iradəsini sındıra bilmirdilər. O, heç kəsin adını vermirdi. Onun qaşlarının üstündən alnına doğru iki dərin qırış uzanmışdı. Bu qırışlar indi elə bil, daha da dərinləşmişdi. Qan sıçramış iti gözü qəzəblə parıldayırdı. Yaşı altmışı keçmiş ağsaqqala müxtəlif işgəncə vasitələri tətbiq edirdilər, psixoloji cəhətdən təzyiq göstərirdilər. Bəzən şüuru dumanlanırdı, huşu gedirdi, təzyiqlərə dözə bilmirdi, amma yenə də dilindəki qıfılı qıra bilmirdilər.




Belə günlərin birində axşamçağı yenə Hacının huşu özündən getdi. Elə zənn etdilər ki, canını tapşırıb. Nəbzini yoxladılar, vururdu. Onu həbsxananın xəstəxanasına köçürdülər. Zulalovun tapşırığı belə idi: "Bu adamı sağ buraxmaq olmaz. İşgəncələr verin, lazım olan məlumatları ondan alın, bundan sonra güllələyin!"

Günlər keçdikcə kəndin xatirəsi yuxu görüntüsü kimi tədricən solmağa, bu acı, fərəhsiz, can üzən həyatındakı gerçəkliklərin təsirilə silinməyə başlayırdı. Hacı İsgəndər yenə köhnə dostu Ruhulla Axundova bu ədalətsizliklə bağlı məktub yazmaq istəyirdi. Amma xəbəri yox idi ki, Ruhullanı çoxdan həbs edib güllələyiblər...

...Tibb bacısı səhər tezdən Hacıya iynə vurmağa gələndə duruxdu. Hacı çarpayıda arxası üstə uzanmışdı, gözləri tavana dikilmişdi. Bu gözlər şüşə kimi idi, heç nə ifadə etmirdi. Tibb bacısı hər şeyi başa düşdü, çevrilib otaqdan çıxdı...

***

*Ayın üzünün qanı çəkilmişdi, göyün ortasında soyuq-soyuq ağarırdı, yan-yörəsindən əskik olmayan ulduzlar nəsə gözə dəymirdi. Aya yazığı gəldi, fikirləşdi ki, görən Ayın o biri üzü nə rəngdədi, ya bəlkə heç Ayın o biri üzü yoxdu? Ona elə gəldi ki, üzünün rəngi sozaldıqca Ay aşağıya doğru diyirlənir. Axı bu ulduzlar harada itib-batıb görəsən?*

*Ayın üzündəki qaraltı tənhalığın kölgəsi idi. İnsan dərdini suya danışdığı kimi Ay da dərdini Xəzərə danışırdı və danışdıqca da yüngülləşirdi. Ay yüngülləşdikcə küləyin yükü azalırdı və külək Ayı itələyə-itələyə üfüqdən o yana qovmaq istəyirdi. Heydən düşmüş Ay heç cür təslim olmaq istəmirdi və gecəyə sonadək sahiblik etməyə çalışırdı.*

Külək gördü ki, Ayı təkbaşına aşırda bilməyəcək. Onda qara buludları başına yığıb Ayı göy üzündən devirməyin planını cızdı. Buludlar küləyin küyünə gedən olur, o saatca onun qabağına düşüb Ayın üstünə şığıdılar. Ayın bənizi ağardı, ətrafına göz gəzdirdi- ulduzlar yox idi.

Yox. Ay təslim olmayacaqdı. Gecəni səhərə çıxarıb yerini Günəşə verdikdən sonra çəkilib gedəcəkdi. Qoy heç ulduzlar olmasın, öz işığı özünə də, gecəyə də, hələ desən, dənizə də yetirdi.

Qara bulud Ayın qabağını kəsdi və dərhal bədəni qarsalandı. Beləcə, yarımcan olub öz yatağına çəkildi, daha sonra bir qara bulud da bu oddan keçdi, sonra biri də, biri də... Ay elə əvvəlki yerindəydi- yupyumru,- dövrəsini bəzəyən halədən süst-məst düşmüşdü. Bulud girən kol deyildi. Gündüz, hə, nəsə eləyə bilərdi; göydə guruldayıb leysan yağışlar tökə bilərdi. Gecə isə buludun yemi deyildi. Nə yaxşı ki, külək bunu tezcə anlayıb boş xülyadan əl götürdü və axır ki, buludları dinc buraxdı.

...Bir dərviş gümüşü yolun ağına düşüb getdikcə gedirdi. Ay işığını ovuclayıb üz-gözünə çəkdikcə yuxusu dağılırdı. Sanki gümüş yolun məsafəsini ölçürdü.

Ay o dərvişi mənzil başına yetirməliydi... O dərvişin içində bir külək əsirdi və o küləyin içində bir bulud süzürdü- Aya doğru...

Dərviş qəfildən səhranın ortasında yerə çöküb bardaş qurdu və dodaqucu nəsə vird eləməyə başladı. Ayın işıq əli dərvişə doğru uzandı.

Dərvişin içində nə külək vardı, nə də bulud...

Dərvişin içində yupyumru bir Ay doğmuşdu!..

### Epiloq

1980-ci illərin ortalarında SSRİ-də yenidənqurma dalğası başlandı. Dövlətin basına M.S.Qorbaçov keçmişdi. Qorbaçovun hakmiyyətə gəlişi ermənilər üçün əsl toy-bayrama çevrildi. "Düşmən heç vaxt yatmır" məsəli sanki ermənilər üçün deyilib. Yaranmış fürsətdən istifadə edən bədnam qonşularımız yenə köhnə havaları səsləndirməyə başladılar. Azərbaycanın gözü olan Qarabağı mənimsəyib, böyük Ermənistan yaratmaq xülyasına düşdülər. Topxanada alovlanan münaqişə arada dərin uçurum yaratdı. Qorbaçovun köməkliyi ilə Göyçədən, İrəvandan ata-baba yurdlarından azərbaycanlıları zorla qovub cıxardılar. Sumqayıtda iğtişaşlar törətdilər, Bakıda 1990-cı ilin yanvar ayının 20-də dinc əhalinin üzərinə ordu yeridildi, yüzlərlə insanın qanı töküldü, televiziya bloku partladıldı, Bakı blokadaya alındı. Torpaq iddiasında olan ermənilər Qarabağda qanlar tökdülər, canlar aldılar, 26 fevral 1992-ci ildə Xocalıda əsrin ən dəhşətli faciəsini törətdilər. Qoca, cavan, uşaq, qız, gəlin bilmədən əliyalın əhaliyə bir gecədə divan tutdular. Həmin günlərdə Azərbaycanın mərd oğul və qızları Qarabağda şücaətlə döyüşür, Vətən torpağının hər qarışını göz bəbəkləri kimi qoruyurdular.

1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Ölkəmizi müstəqil dövlət kimi ilk tanıyanlardan biri də Pakistan və Türkiyə idi. Türkiyə Azərbaycan müstəqillik əldə etdikdən sonra ona hər zaman doğma qardaş kimi onun yanında olub. Bu qardaşlığı Ulu öndərimiz Heydər Əliyev çox gözəl ifadə edib: "Biz bir millət, iki dövlətik".

2018-ci il. Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi. Həmn gün dünyanın hər yerindən Azərbaycana təbriklər axışırdı. Ancaq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan xüsusi təbrik üçün Bakıya gəldi və Azərbaycan Prezidenti İlham Əliyevlə birgə "Azadlıq" meydanında Azərbaycan və türk əsgərləri qarşısında çıxış etdilər. Rəcəb Tayyib Ərdoğan 1918-ci ildə Azərbaycanı düşmənlərdən – erməni daşnaklarından xilas edən Qafqaz İslam Ordusunun və Nuru paşanın şücaətindən danışdı. Azərbaycan xalqının ümid yeri olan Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsinə həsr edilmiş "Lalələr" şeirini tribunadan səsləndirdi.

**Yazın əvvəlində Gəncə çölündə**  
**Çıxıblar yenə də düzə lalələr.**  
**Yağışdan islanan yarpaqlarını**  
**Səriblər dərəyə, düzə lalələr.**

**Xəyalımdan nələr gəlib, nə keçər,**  
**Yaz gələr, ellərə dumalar köçər.**  
**Bulaqlar simavər, ağ daşlar şəkər,**  
**Bənzəyr çəməndə közə lalələr.**

**Meylim üzündəki qara xaldadır**  
**Hicranın əlacı ilk vüsaldadır.**  
**Nə vaxtdır Bakının gözü yoldadır**  
**Bir qonaq gələsiz bizə lalələr.**

Həmin gün Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş bütün şəhidlərin, represiya qurbanlarının, Cümhuriyyət qurucularının ruhları "Azadlıq" meydanına toplaşmışdı. Hamı bir-birini təbrik edirdi. Haci İsgəndərin də ruhu onların içərisində idi.

**10 may – 20 dekabr, 2019-cu il.**

***Zəruri qeyd:*** **Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra tikintisi yarımçıq qalmış Cümə məscidinin binasından anbar və dükan kimi istifadə olunmağa başladı. Ta 1989-cu ilə qədər məscid mağaza kimi fəaliyyət göstərirdi. 1989-cu ildə Axund Hacı Soltanın təşəbbüsü ilə məscid yenə də öz təyinatı üzrə fəaliyyət göstərməyə başladı. Lakin məscidin günbəzi, minarələri yox idi. O zaman tikintiyə cəhd olunsa da bu iş yenə də yarımçıq qaldı. Nəhayət, 2007-ci ildə Buzovna sakinlərinin Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevaya müraciəti öz müsbət nəticəsini göstərdi. Məsciddə yenidənqurma işlərinə başlandı. 2009-cu ilin dekabrın 19-da bu müqəddəs məkan – Cümə məscidi xalqın istifadəsinə verildi. Hacı İsgəndərin yarımçıq qalmış arzusu doxsan ildən sonra gerçəyə çevrildi. Heç şübhəsiz, həmin gün Hacı İsgəndərin ruhu kənardan bu ehtişamı seyr edirdi. Cümə məscidinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak edirdilər.**